**Qazaxıstanın Almatı şəhərində "Şərqi Avropa və Mərkəzi Asiyada miqrasiya və inkişaf üzrə məlumatların yaxşılaşdırılması" mövzusunda seminar keçirilmişdir**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nümayəndələri Keyfiyyətin idarə olunması və informasiya texnologiyaları şöbəsinin sektor müdiri Vüqar Şahbazov və Əmək statistikası şöbəsinin aparıcı məsləhətçisi Elistan Əzimov 2013-cü ilin 31 oktyabr – 1 noyabr tarixlərində Beynəlxalq Miqrasiya Təşkilatının və Dövlət Statistika Komitəsinin maliyyə dəstəyi ilə Qazaxıstanın Almatı şəhərində Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üçün "Şərqi Avropa və Mərkəzi Asiyada miqrasiya və inkişaf üzrə məlumatların yaxşılaşdırılması" mövzusunda təşkil edilmiş seminarda iştirak etmişlər.

Seminarda Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Ukrayna, Moldova, Qazaxıstan, Qırğızıstan, Rusiya, Türkmənistan, Tacikistan və Özbəkistanın statistika təşkilatlarının və miqrasiya xidmətlərinin 25 nümayəndəsi iştirakçı, Dünya Bankı, Beynəlxalq Əmək Təşkilatı və Müstəqil Dövlətlər Birliyinin Dövlətlərarası Statistika Komitəsinin nümayəndələri isə müşahidəçi qismində iştirak edirdilər.

Seminarın əsas məqsədi miqrantlar haqqında tam və dolğun məlumat almaq, onların problemlərini öyrənmək, beynəlxalq səviyyədə miqrasiyanın daha mükəmməl idarə olunması, bu sahədə ölkələrarası əlaqələrin və əməkdaşlığın gücləndirilməsi, miqrantların sağlamlığının qorunması, miqrantların hüquqlarının müdafiəsi; miqrantlara yönəldilən xərclərin azaldılması; miqrantların istismarı; böhran zamanı miqrantların qorunması; miqrantlar haqqında ictimai fikirlərin yaxşılaşdırılması; miqrasiya sahəsində əməkdaşlığın inkişafı, təhsil hüququnun təmin olunması və miqrantlar arasında yoxsulluğun azaldılması və s. məsələlərin müzakirəsi olmuşdur.

